## SƏNƏTŞÜNASLIQ

**UOT 82-1**

**Gülşən Teymur qızı Əliyeva-Kəngərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Filologiya elmləri doktoru, professor**
**E-mail: gulshenkengerli@mail.ru**

# KLASSİK ŞEİRİMİZ VƏ MÜASİRLİK

**Xülasə:** Klassik poeziya hər bir xalqın milli-mənəvi sərvətləri sırasında mühüm yer tutur. Klassik poeziyamız milli qürurumuzdur. Hansı dildə yazılmasından asılı olmayaraq, müasirlik poeziyamızın tarixiliyini müəyyən edir. Klassik irs, o cümlədən klassik poeziya tarixən statik mövqe tutur. Xaqani, Nizami, Nəsimi, Füzuli, Vaqif öz dövrlərində bizə nəhəng poeziya qoyub getmişdir. Zaman-zaman ona münasibətimiz də dəyişir.

**Açar sözlər:** klassik şeir, ədəbiyyat, müasir poeziya, epos

Hər bir xalqın milli-mənəvi sərvətləri sırasında klassik şeir önəmli yer tutur. Əksər cüzi istisnaları (məsələn, Xaqaninin məktublarını, Füzulinin "Şikayətnamə"sini və s.) nəzərə almasaq, min ildən artıq yazılı tarixi olan qədim və zəngin Azərbaycan ədəbiyyatı əsasən poetik – şeir janrında təkamül prosesi keçib. Ona görə də ümumiyyətlə, Şərq ədəbiyyatında əsas yer tutan şeir Azərbaycan ədəbiyyatında müstəsna mövqeyə malikdir. Klassik şeirimiz bizim milli iftixarımızdır. Mənəvi-ictimai fikrimizdə həlledici mövqeyə malik olan poeziyamız, həm də fəlsəfi-tarixi düşüncəmizin ana bətnidir. Qədim eposumuz olan "Kitabi-Dədə Qorqud" şeirlərindən tutmuş, bayatılarımıza qədər dünya insan yaradıcılığı barəsində ən sanballı fikirlər məhz poetik dildə ifadə olunmuşdur.

Böyük tarixi zəfərlə başa çatmış hər günü bir ilə bərabər 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni tarixi gerçəklik kontekstində bədii-fəlsəfi mənalarla zəngin klassik şeirimizə münasibət dövrümüzün aktual tələbi olaraq meydana çıxıb. Bu problemi zərurətə çevirən bir tarixi amil də var: XX əsrdə uzun müddət biz bizi istəməyənlərin totalitar təzyiqi altında öz klassik şeirimizə ümumtarix mövqedən yanaşmış, mədəni-mənəvi irsimizi sosialist çamuruna salmışıq.

Müasirlik ən fəal estetik kateqoriyası kimi, həm ədəbi tənqid və ədəbiyyatşünaslıqda, həm də bədii-fəlsəfi fikrin tarixi təyinatlarında əsas ölçü olaraq indi daha artıq iştirak edir. Klassik irs, o cümlədən klassik şeir tarixən statik mövqeyə malikdir. O dəyişməzdir – Xaqani, Nizami, Nəsimi, Füzuli,

Vaqif hərə öz zəmanəsində bizim üçün zəngin şeir sərvəti qoyub gedib. Dəyişən bizim zaman-zaman ona münasibətimizdir. Nəzərə alsaq ki, bizim peşəkar ədəbi tənqidin və ədəbi-nəzəri fikrin tarixi (Xaqaninin, Nizaminin bəzi mühazirələrini, Füzulinin türkcə, farsca qəzəlləri, ərəbcə qəsidələr divanına yazdığı "Dibaçələri", təzkirələri istisna edirik!) XIX əsrdən – M.F.Axundzadədən başlanır. Onda müasirlik kateqoriyasının Azərbaycanda yeni tarixi gerçəklik baxımından nə qədər aktual olduğunu təsəvvür edə bilərik.

Bir də onu nəzərə alaq ki, XIII əsrə qədər poeziyamız ərəb və fars dillərində inkişaf edib: Qətran Təbrizi, Əfzələddin Xaqani, xanım Məhsəti Gəncəvi, dahi Nizami Gəncəvi kimi klassiklərimiz fars dilində yazıb, onda müasirlik kateqoriyasının milli müəyyənliyin qorunması üçün ədəbi-tarixi zərurət olduğu aşkara çıxar.

Hansı dildə yaranmasından asılı olmayaraq müasirlik şeirimizin tarixiliyini müəyyən edən, daha doğrusu təlqin edən bir estetik kateqoriyadır. Biz də bu vaxta qədər vulqar sosiologizmə qapılaraq ədəbiyyat tarixi kitablarımızda klassik şeirimizi əsasən öz zəmanəsini qatqılayan bir filoloq kimi təsvir etmişik.

Halbuki, hər bir dövrün klassik şeiri təxminən min il davam edən feodalizmin naqisliklərini tənqid etməklə yanaşı, əsasən öz zəmanələrinin tarixi-mənəvi təkamülünə yardım edib. Heç də təsadüfi deyil ki, ədəbiyyat tariximizin mərhələləri klassiklərimizin adı ilə – Xaqani epoxası, Nizami epoxası, Nəsimi epoxası, Füzuli epoxası adlandırılır. Belə adlanma hər bir dövrə məxsus müasirlik kateqoriyası ilə bağlıdır. Təbii ki, bu həm də klassik şeirimizin bədii-fəlsəfi qüdrəti ilə, onun ifadə etdiyi bəşəri ideyalarla bağlıdır. Bizim ədəbiyyatda şeir – poeziya anlayışı tarixi epoxa anlayışına bərabərdir. Klassik Azərbaycan şeiri əslində bədii şəkildə rəsmi edilmiş tarixin – Azərbaycan tarixinin özüdür. Bu yerdə böyük Aristotelin öz "Poetika"sında yazdığı bir məşhur fikri xatırlamaq yerinə düşər: "poeziya tarixdən qabaq ciddidir, tarix daha çox konkretdən, poeziya daha çox ümumidən bəhs edir."

Görkəmli ədəbiyyatşünas akademik D.S.Lixaçov qədim rus ədəbiyyatından bəhs edərək yazır: "Bu ədəbiyyat bir mövzuya və bir süjetə malikdir. Bu süjet dünya tarixi, bu mövzu insan həyatının mənasıdır." (3) Biz klassik Azərbaycan şeiri barəsində də eyni sözləri deyə bilərik – Nizami şeiri – Şərq renessansı, Nəsimi şeiri – hürufizm, Füzuli şeiri – sufizm deməkdir.

Və bu əslində, klassik şeirin müasirliyinin göstərilməsidir. Nizami fəlsəfi poeziyasında intibah dövrünün, Nəsimi və Füzuli şeirində Orta əsrlər Azərbaycanın tarixi-mənəvi və mədəni mühiti müxtəlif bədii obrazlarla əks olunub.

*Əmr etdi, verildi belə bir fərman:*
*"Alimdir gözündə ən əziz insan!*
*Elmlə, hünərlə! – Başqa cür heç kəs*
*Heç kəsə üstünlük eləyə bilməz!*

"İsgəndərnamə" poemasından verilən bu beytlər dahi Nizaminin Şərq renessansı dövrünün müasir anlamıdır: savadlı və intellektual insan konsepsiyasının poetik modelidir.

*Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəyərin?!*
*İdrakı dindirsən, söyləyər o da.*
*Hər şey eşq üstündə durur dünyada.*

Eşq və idrak! İnsana məxsus bu iki ali və ülvi mahiyyətin vəhdəti Azərbaycan klassik intibah şeirinin bədii-fəlsəfi düsturudur. Nizami yaradıcılığına xas olan hər iki tendensiya müasirlik ruhu ilə aşılanıb. Bu gün doqquz yüz ildən sonra – XXI əsrdə də müasir və aktualdır. İndiki yüksək texnologiyalar dövründə – texnokrat Qərb təfəkkürü ilə, humanitar Şərq düşüncəsinin rəqabət apardığı zaman kəsimində də aktualdır.

Müasirlik qədim mifdən tutmuş, istiqlalın yenidən bərpası dövrü poeziyasına qədər əsrlər boyunca bədii düşüncəmizin aparıcı meyli olub. Qədim bayatılarımızda, aşıq qoşma və təcnislərində o, müxtəlif formalarda poetik təkamülə xidmət edib:

*Əzizim Vətən yaxşı.*
*Geyməyə kətan yaxşı.*
*Qürbət yer cənnət olsa,*
*Yenə də Vətən yaxşı.*

Bu bayatını kimin, nə vaxt, tarixin hansı dönəmində çağırdığı məlum deyil. Fəqət məlum olan odur ki, adam, o zaman Vətən həsrəti ilə yaşayıb. XXI əsrdə Vətəndən didərgin düşüb mühacir həyatı yaşamağa məcbur olan və son mənzili qürbət olanların hamısı üçün doğma və müasirdir bu bayatı. Nə qədər zaman keçsə də o köhnəlmir – müasirliyin gücü bundadır. Və yaxud:

*Əzizim bala banı,*
*Asta çal, balabanı,*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?!*

Bala həsrəti həmişə təzədir, xüsusən, 44 günlük Vətən savaşında balası itkin düşən, şəhid olan anaların dilinin əzbəridir bu bayatı. Yaxud:

*Ağ dəvə düzdə qaldı,*
*Yükü Təbrizdə qaldı.*
*Oğlanı dərd apardı,*
*Dərmanı qızda qaldı.*

Sevgi və həsrət, ayrılıq hissini bundan daha yaxşı ifadə etmək olarmı?! Və yaxud:

*Əzizim gül üşüdü,*
*Şeh düşdü, gül üşüdü.*
*Güldün, ağlım apardın,*
*Bu necə gülüşüdü?*

Sevinc duyğusunu bundan daha zərif poetika ilə ("Şeh düşdü, gül üşüdü" – obrazının cilalığına nəzər salın!) ifadə etmək ("Güldün, ağlım apardın!") mümkün deyil.

Eşqin hiddətindən, hüsnün gözəlliyindən, heyrətdən donan aşiq nəinki ağlını, hətta nitqini belə itirib, lal olur, heykələ dönür. Bunu da dahi "qəlb şairi" Füzuli deyir:

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*

Gözəlliyə belə bədii-fəlsəfi münasibət yaşadığı dövrdə – XVI əsrdə də aktual idi, yaşadığımız dövrdə, XXI əsrdə də müasirdir. Bu heyrət təsadüfi deyil, Hz.Məhəmməd – ulu peyğəmbərimiz gözəli görüb, heyrətlə belə bir ayə söyləmişdi: "Fatə bərəkallah əhsənül-xaliqin!", yəni "Xaliqin yaratdıqlarına eşq olsun!"

Böyük filosof, hürufi şair Nəsimi bu mübhəm duyğunu belə ifadə edib:

*Səni bu hüsnü-camal ilə, kamal ilə görüb,*
*Qorxdular haqq deməyə, döndülər insan dedilər [1; s.262].*

Biz hürufi poeziyamızın cəngavər şairi İmadəddin Nəsimi şeirinə həsr olunmuş "Hüsni-cəmal, əqli-kamal" kitabımızda bu barədə araşdırma aparmışıq. "Dünyanı gözəllik xilas edəcək" (F.Dostoyevski) – klassik şeirimizdə müasirliyi bu düsturla izah edə bilərik.

Orta əsrlər klassik şeirimizin müasirliyi həm də mistik yaşantı ilə bağlıdır. Böyük sufi mütəfəkkir Mövlanə Cəmaləddin Rumi deyirdi: "Onu bil ki, biz bu görünən bədəndən ibarət deyilik. Biz bu bədəndən savayı, Allah ilə bərabər yaşayırıq". Sufilər insandan (idrakdan!) Allaha doğru gedirdilər (təkamülün 4 mərhələsi!), hürufilər Allahdan insana enirdilər – Ənəlhəqq. Hər ikisi klassik şeirimizin müasirliyini şərtləndirir:

*Hüsnün olduqca füzun, eşq əhli artıq zar olur,*
*Hüsn hər miqdar olursa, eşq ol miqdar olur [2].*

*Ey mələksima ki, səndən özgə heyrandır sana,*
*Həqq bilir, insan deməz, hər kim ki, insandır, sana.*

Bu beytdə Füzuli Nəsimi ilə birləşir, onu tamamlayır.

Nəsimi Azərbaycan və Şərq, eyni zamanda dünya poeziyasının üç dahisi Nizami, Nəsimi və Füzuli hər cür dindən və təriqətdən yüksəkdə duran şairlər idi. Fəqət biz heç də islam amilinin onların yaradıcılığındakı rolunu inkar etmək niyyətində deyilik. Onların hər birinin dünyanın ən demokratik və müasir dini olan islama öz fərdi münasibətləri var idi. Hər üçü insan varlığının mahiyyətini – Allah, İnsan və Cahan münasibətlərini izah edərkən, daha dəqiq desək, insanın kimliyini onun özünə tanıdarkən dindən istifadə etmişlər. Lakin Füzulinin dinə enməsinə bəraət qazandıra bilmərik, məhz müasirlik baxımından buna imkan yoxdur. Böyük şair deyir:

*Ruzi yeyənik ali-rəsulun qapısında,*
*Bir ömrdür olmuş bizə bu ruzi müqərrər.*

“Ruzi yemək” xatirinə dördüncü xəlifə, Məhəmmədin əmisi oğlu və kürəkəni Əli ibn Əbu Talibin oğlu Hüseynin məqbərəsində süpürgəçilik etməsini dahi şairə haqq qazandırmaq, məhz müasirlik düşüncə kontekstində bəraət qazandırmaq mümkün deyil. Bu əslində dinimizdə parçalanma əlaməti kimi meydana çıxan ifrat şiə təəssübkeşliyidir. Şair bununla kifayətdir:

*Ucaldın qəbrim, ey bidərdlər, səngi-məlamətdən*
*Ki, mə’lum ola dərd əhlinə qəbrim ol əlamətdən.*
*Məzarim üzrə qoymun mil, əgər kuyində can versəm,*
*Qoyun bir sayə düşsün qəbrimə ol sərvqamətdən [2; s.46].*

Yəni mənim qəbrimə başdaşı qoymayın, o sərvqamətin başdaşısının kölgəsi mənim məzarımın başdaşı olsun. Bununla bərabər, deməliyəm ki, klassik şeirimizdə dinimizin təsirindən daha çox mistik yaşantı hakimdir. Bu hər şeydən çox insanın – yaşam stixiyası yerlə göy arası olan biz türklərin düşüncəsi ilə bağlıdır. Türk düşüncəsi daha çox təbiət amili ilə bağlıdır, ona görə də bizim şeirdə təbiətin təsviri – peyzaj lirikası mühüm yer tutur. Bütün türk fəlsəfi sistemlərində (əl-Birunidə, İbn Sinada, Bəhmənyarda, N.Tusidə və s. insanın təbiətlə vəhdətdə dərki əsas yer tutur.

Klassik şeirdə müasirlik orta əsrlərin son mütəfəkkiri, şair və dövlət xadimi M.P.Vaqif yaradıcılığında real tarixi məzmun kəsb edir. Əksər təsəvvüf şeirində mistik romantik həqiqət, daha doğrusu, mistik romantik obraz həlledici idisə M.Füzulidəki heyrət Vaqifdə real maddi münasibətə çevrilir.

*Boyu mina gərdən, sinəsi mərmər,*
*Bəyaz ola gül əndamı sərasər.*
*Əlində al həna, zülfündə ənbər,*
*Qaşında, gözündə sürmə gərəkdir.*

Vaqif poeziyasında müasirlik həm ideyada, həm şairin varlığa estetik münasibətində, həm də bədii təsvir və tərənnüm sistemində realizmin təşəkkülünə zəmin yaradır.

Bir mühüm məsələni də qeyd edək: klassik şeirimizdə müasirliyin diri – canlı qalmasına səbəb Şərqin, türk-islam aləminin, xüsusən Azərbaycanın milli-fəlsəfi sərvəti olan muğamdır. Klassik şeirimizin əsas janrı olan qəzəl məhz muğam üstə ifa olunaraq, müasirlik və aktuallıq kəsb edib. Qəzəl muğam ahəngi ilə birləşərək, daha dəqiq: qəzəl muğam aurasına daxil olaraq daha ziyadə milli sərvətə çevrilib. Bizim muğamımız milli tarixi idrakımızın, ilahi kədərimizin, sevgimizin bənzərsiz obrazıdır. Klassik şeirimiz, xüsusilə onun əsas janrı olan qəzəl muğamla ifa olunanda daha parlaq fəlsəfi məzmun və müasirlik kəsb edir.

## Ədəbiyyat siyahısı:

1. Nəsimi. Seçilmiş əsərləri. Bakı, 1973, səh.262
2. Füzuli. Əsərləri. 6 clddə. I c. Bakı, 1996, s.46
3. Художественное наследие Древней Руси и современности. Наука, 1971

**Гюльшен Теймур кызы Алиева-Кенгерли**

## КЛАССИЧЕСКАЯ ПОЭЗИЯ И СОВРЕМЕННОСТЬ

**Резюме:** Классическая поэзия занимает важное место среди национально-духовного богатства каждого народа. Классическая поэзия– наша национальная гордость. Независимо от языка, на котором она была написана, современность определяет историчность нашей поэзии. Классическое наследие, в том числе и классическая поэзия, занимает исторически статичное положение. Хагани, Низами, Насими, Физули, Вагиф в свое время оставили нам огромную поэзию. Время от времени меняется и наше отношение к ней.

**Ключевые слова:** классическая поэзия, литература, современная поэзия, эпос.

**Gulshan Teymur gizi Aliyeva-Kangarli**

## CLASSICAL POETRY AND MODERNITY

**Summary:** Classical poetry occupies an important place among the national-spiritual wealth of every nation. Our classical poetry is our national pride. Regardless of the language in which it was created, modernity determines the historicity of our poetry. Classical heritage, including classical poetry, has a historically static position. It is unchangeable - Khagani, Nizami, Nasimi, Fuzuli, and Vagif all left a wealth of poetry for us in their time. Our attitude towards it changes from time to time.

**Key words:** classical poetry, literature, modern poetry, epic

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**